# POL STRETERN

# ŞOPENHAUERLƏ 90 DƏQİQƏ

Tərcüməçi:

Çinarə Məhəmməd

qanun nəşriyyatı

PAUL STRATHERN

# SCHOPENHAUER IN 90 MINUTES

Platondan sonra fəlsəfə dünyası bu qədər incə yazı və düşüncə üslubu görməmişdi. Əsərləri bizdə onun necə insan olması haqda dolğun təsəvvür formalaşdırır. Kitablarında ağıllı, gözüaçıq və səmimi görünən bir çox ideyalar realda sarkazmdır. Hətta hadisələrin məbədində aqressiya da var.

Şopenhaueri həm də "pessimizm filosofu" adlandırırlar. Onun gətirdiyi pessimizm mərhələsi ətrafa bir fərahlıq bəxş edir. O, dünyanın bizim həyatımıza etinasız yanaşdığını deyir və bunun təbii olduğunu iddia edir.

Kitabda Şopenhauer haqqında ən vacib məlumatlar yer alıb.

**PAUL STRATHERN** **SCHOPENHAUER IN 90 MINUTES**
**POL STRETERN** **ŞOPENHAUERLƏ 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 80 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 120x185 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 27.04.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Çinarə Məhəmməd |
| Redaktor: | Gülgəz Nur (Abbasova) |
| Korrektor: | Lalə Əmirova |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Sevil Rafail |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-603-5

© Qanun nəşriyyatı, 2023
© Chicago: Ivan R.Dee, 1999 - Sopenhauer

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları “Qanun Nəşriyyatı”na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

## Giriş

Müasir fəlsəfə öz başlanğıcını Dekartdan götürür. Hər şeyi şübhə altına almaqla Dekart bizim bütün biliyimizi yeganə gerçək mövqeyə - cogito ergo sum[1] ideyasına yönəldir. Təəssüf ki, sonradan o, sanki ona qədər heç nə yox imiş kimi, bizim aləm haqqında biliyimizi yenidən formalaşdırmağa başlayır. Bir az sonra Britaniya empirikləri Lokk, Berkli və Yum da buna bənzər dağıdıcı yola qədəm qoyur və iddia edirlər ki, bizim biliyimiz yalnız təcrübəyə əsaslanır. David Yum təcrübəyə əsaslanan bilik prosesi haqqında nəzəriyyəni tamamlayana qədər insan biliyindən yalnız xarabalıqlar qalmışdı. Yumun fikrinə görə, bütün bizim təcrübəmiz müxtəlif duyğuların rəngarəngləşmiş cəmidir. Bizim əqli nəticələrimiz də məhz

[1] Düşünürəm, deməli mövcudam (latın)

heç bir fəlsəfi etibara malik olmayan bu duyğular cəminin əsasında qurulur.

Məhz bu absurd ideyalar zamanı çatdıqda Kantı "ehkamçı yuxudan" oyadacaqdı. Empirizmi diqqət mərkəzində saxlayan, amma ona sona qədər uymayan Kant nəticədə, ən tutarlı fəlsəfi sistemlərdən birini yaradacaqdı.

Məsələni ali olandan başlayıb gülünc olanla yekunlaşdıran Hegel də Kant fəlsəfəsi qədər təsirli bir sistem yaradır. Amma Şopenhauer Hegelin fəlsəfəsinə nifrətlə yanaşır və düşünür ki, Hegel fəlsəfəsi nifrəti haqq edir. Epistemologiyada Şopehauer Kant nöqteyi-nəzərini izləyirdi. Kant həmçinin ali və gözəl mənəviyyat sistemini yaratmışdı. Kantın gözlərində aləm misilsiz gözəlliyə malik olub, mənəvi əsasa sahib idi. Qeyd edilir ki, "Es ist gut"[2] onun dediyi son sözlər imiş. Aləmin məqsədi və təyinatına dair yazdığı son əsərdə Kant deyir: "Onlar haqqında tez-tez və daima düşündüyüm halda, iki mahiyyət mənim ruhumu həmişə təəccüb və hörmət hissi ilə doldurur – bunlar başımın üzərində olan ulduzlu səma və daxilimdə olan mənəvi qanundur".[3] Biz daha

[2] Bu, yaxşıdır (alman)
[3] İ.Kant "Praktik əqlin tənqidi" (N.Losskovun tərcüməsində)

sonra görəcəyik ki, Şopenhauer bu deyilənlərə tam başqa mövqedən baxır.

## Şopenhauerin həyatı və əsərləri

Şopenhauer bizi yenidən günah dünyasına geri qaytarır. Düzdür, insan kimi o qədər də xoş birisi olmasa da, onun fəlsəfi əsərləri qibtə ediləsi idi. Platondan sonra gəlmiş filosoflar içində o, ən incə yazı və düşüncə üslubuna malik olan filosof idi. Onun fəlsəfi sistemi bizi biganə qoya bilməzdi. Sokratdan sonra ilk dəfə Şopenhauerin fəlsəfəsi öz yaradıcısının şəxsiyyətini bütün çalarları ilə özündə əks etdirə bilmişdi. Onun əsərləri bizə onun necə insan olduğu haqqında təsəvvürlərimizin formalaşmasına imkan verir. Şopenhauerin əsərlərini oxuyarkən onu yadda saxlamaq lazımdır ki, onun kitablarında ağıllı, açıqgözlü və səmimi görünən bir çox ideyalar realda sarkazm, eqoizm olub, hadisələrin məbədində hətta aqressiyaya çevrilə bilir. Səhnədən kənarda gülüş ustaları nadir hallarda insani keyfiyyətlər

nümayiş etdirir. Tarixdə ağıllı filosoflara nadir hallarda rast gəlinsə də, bu, onları deyilən qanundan kənara çıxartmır (Sokratın bəxti gətirib ki, bizim əlimizdə onun həyat yoldaşı Ksantipanın şahidliyi yoxdur).

Amma Şopenhauer başqa, daha vacib münasibətdə fərqlənirdi. Təsadüf deyil ki, o, həm də "pessimizm filosofu" adlandırılır. Digər böyük filosoflarla bağlı bizə çatan məlumatlarda olduğu kimi burada da, "fəlsəfəni yaradan doğru davranış nümunəsini sərgiləyir və bizdən də eynisini gözləyir" kimi bir hissdən qurtulmaq mümkün deyildir. Onlarda hər şey tam ciddi və yüksək mənəvidir (hətta Yum hər şeyi dağıdıb, alt-üst edəndə belə tam ciddi idi). Digər tərəfdən, Şopenhauer "bizim dünyanı və həyatımızı uğursuz bir zarafat hesab edir" fikrini qətiyyən gizlətmir. Bu mənada, o, dünyaya çəhrayı eynəkdən baxanlar və bu dünyada təyinat axtaranlarla müqayisədə reallığa daha çox yaxındır. Əsrlərlə davam edən xristianlıq dövrü və rasionalizmdən sonra Şopenhauerin gətirdiyi pessimizm mərhələsi ətrafa sanki bir fərahlıq hissi bəxş etmişdi. Filosofun özü ona görə pessimist idi ki, o, aləmin bizim həyatımıza etinasızlıq sərgilədiyini deyir və onun

(aləmin) bu yanaşmasının sövq-təbii olduğunu iddia edirdi.

Belə bir fikri stoaçılardan sonra ilk dəfə Şopenhauer öz fəlsəfəsində tam təsvir edəcəkdi. Stoiklər, ümumiyyətlə, dünyadan, onun şər və günahlarından kənarlaşmağı məsləhət görürdülər. Şopenhauer bunu daha qabarıq, ciddi və dünyəvi formada göstərirdi. Amma Şopenhauer bu dediklərinə özü əməl etmək üçün çox eqoist idi (ancaq buna baxmayaraq, o, özünü asketizm nümunəsi hesab edirdi). Bu paradoks həm də müəyyən mənada Şopenhauer fəlsəfəsinin məşhurluğunu izah edir. Sözügedən paradokslar həmçinin onun təbiətinin dərinliklərində olan və həyatının sonuna qədər həllini tapmayan təzadlardan da irəli gəlirdi.

Artur Şopenhauer 22 fevral 1788-ci ildə Baltik dənizinin sahilində olan Dansiq (indiki Qdansk) şəhərində dünyaya gəlib. Buradan Könsberqə - Şopenhauerin pərəstiş mənbəyi olan Kantın şəhərinə çox az məsafə var idi. Gələcək filosofun atası əsilzadə ailəsindən olsa da, ticarət ilə məşğul idi. Şopenhauerin anası isə reallaşmayan bədii meyillərə malik olan şən bir qadın idi.